**2026-CI İL ÜZRƏ "BİRGƏ FİLM İSTEHSALINA DƏSTƏK MÜSABİQƏSİ"NƏ DAİR**

# REQLAMENT

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində Azərbaycan Respublikasının Kino Agentliyi (bundan - sonra Agentlik) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 1880 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinin 3.2.4-cü yarımbəndinə uyğun olaraq, kinematoqrafiya sahəsində (bundan sonra - müvafiq sahə) "Birgə film istehsalı layihələrinə (bundan sonra – layihə) dəstək müsabiqəsi"ni (bundan sonra - Müsabiqə) elan edir.

Müsabiqə yerli və xarici kino şirkətləri ilə birgə filmlərin istehsalının təşkil edilməsi, birgə film istehsalının stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi, müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər şəxslər arasında rəqabət qabiliyyətinin artırılması məqsədi ilə həyata keçirilir.

## MÜSABİQƏNİN PRİORİTET MÖVZULARI VƏ ÖLKƏLƏRİ

| | |
|---|---|
| • Ortaq ictimai xadimlər və tarixi hadisələr haqqında filmlər<br>• Uşaq filmləri<br>• Adət-ənənələri əks etdirən filmlər<br>• Ortaq dəyərlərin inkişafı və əlaqələrin gücləndirilməsinə xidmət edən filmlər | • Türkiyə<br>• Özbəkistan<br>• Qazaxıstan<br>• Qırğızıstan<br>• Türkmənistan<br>• Gürcüstan |

## MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ

Müsabiqədə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş müstəqil prodüser mərkəzləri və müvafiq sahədə fəaliyyət göstərən digər hüquqi şəxslər (bundan sonra – İştirakçı) tərəfindən təqdim edilən layihələr iştirak edə bilər.

Müsabiqədə bir neçə hüquqi şəxs birgə iştirak edə bilər. Bu halda həmin hüquqi şəxslərdən yalnız biri İştirakçı qismində iştirak ərizəsi ilə müraciət edir. Digər hüquqi şəxslərin həmin İştirakçı ilə münasibətləri qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilələr (birgə istehsal, sponsor və s.) vasitəsilə tənzimlənir.

Müsabiqəyə təqdim edilən layihənin istehsalçılarından biri, mütləq "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xarici prodüser meyarlarına cavab verən şəxs olmalıdır.

Müsabiqəyə təqdim edilmiş film layihələrində müəlliflərdən (ssenari müəllifi, quruluşçu rejissor, quruluşçu operator, quruluşçu rəssam, bəstəkar) azı biri Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər olmalıdır.

Layihənin pirat məhsul olduğu və ya hər hansı şəkildə üçüncü şəxslərin hüquqlarını pozduğu, həmçinin özgənin elmi, ədəbi, bədii və ya digər növ əsərini öz adı ilə nəşr etdirdiyi, yaxud özgənin müəllifliyini mənimsəməklə yeni əsərin yaradıldığı müəyyən edilərsə, İştirakçı dərhal müsabiqədən kənarlaşdırılır. Qeyd olunan hallar İşitrakçı qalib gəldiyi və onunla müqavilə bağlandıqdan sonra müəyyən edilərsə bağlanılmış müqaviləyə birtərəfli qaydada xitam verilir və zərərin əvəzinin ödənilməsi barədə müvafiq tədbirlər görülür.

Müsabiqəyə təqdim olunan film layihələri Azərbaycan dilində olmalıdır. İştirakçılarla bağlanacaq müqavilələrdə əvvəlcədən razılaşdırılmaqla, qalib layihələrə əsasən istehsal ediləcək filmlər Azərbaycan dilində və ya Azərbaycan dilində subtitrlərlə və ən azı ikisəsli dublyajla təmin edilmək şərtilə xarici dildə ola bilər.

Qalib layihə üzrə işlər (xidmətlər) film layihəsini təqdim etmiş İştirakçı tərəfindən həyata keçirilməlidir, hüquq və vəzifələrinin icrasını üçüncü şəxslərə ötürə bilməz.

**Film layihələrinə Agentlik tərəfindən ayrılması nəzərdə tutulan məbləğlərin yuxarı hədləri, İştirakçı şirkət və quruluşçu rejissor üçün tələblər:**

| № | Adı | 1 film üçün ayrılacaq məbləğin yuxarı həddi (manatla) | 1 İştirakçının təqdim edə biləcəyi layihə sayı | İştirakçı şirkət üçün tələb | Quruluşçu rejissor üçün tələb |
|---|---|---|---|---|---|
| 1 | Tammetrajlı bədii filmi | 500 000 | 1 | azı bir tammetrajlı və ya iki qısametrajlı milli film və yaxud azı bir qısametrajlı bədii birgə istehsal filmi | azı bir tammetrajlı və ya 2 qısametrajlı film |
| 2 | Tammetrajlı və ya çoxhissəli (ümumi həcm 60 dəqiqədən az olmayaraq) animasiya filmi | 500 000 | 1 | azı bir qısametrajlı milli animasiya filmi və yaxud azı bir qısametrajlı birgə istehsal filmi | azı bir tammetrajlı və ya iki qısametrajlı animasiya film |

Cədvələ uyğun olaraq, Agentlik tərəfindən ayrılacaq maliyyə məbləği İştirakçı şirkət tərəfindən filmin ümumi büdcəsinin (smeta) 50 faizi və ya daha çox hissəsi qarşılandığı halda təmin edilir.

1 film üçün ayrılacaq məbləğin yuxarı həddinin bu Reqlamentlə müəyyən edilməmiş qaydada artırılması Agentlik tərəfindən yaradılan, müvafiq sahədə fəaliyyət göstərən müstəqil mütəxəssislərdən təşkil edilmiş Bədii Keyfiyyətə Nəzarət Komissiyasının bu barədə rəyləri əsas götürülməklə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Kinematoqrafiya, audiovizual və rəqəmsal əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert Şurasının qərarı ilə mümkündür. Bu halda Ekspert Şurası müvafiq razılığın verilməsi üçün əlavə sənədlər tələb edə və şərtlər müəyyən edə bilər. Bu zaman Agentlikdən istənilən məbləğ ümumi büdcəsinin (smeta) 50 faizindən çox ola bilməz.

## MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə aşağıdakı üç mərhələdən ibarətdir:

- 1-ci mərhələ - layihələrin qəbulu;
- 2-ci mərhələ - təqdim edilmiş layihələrin yoxlanılması və təhlili;
- 3-cü mərhələ - layihələrin bədii və iqtisadi dəyərləndirilməsi və nəticələrin elan edilməsi.

Müsabiqə barədə elan və məlumatlar Agentliyin rəsmi saytında (https://arka.culture.az) yerləşdirilir. Sənədlər müsabiqə elan edildiyi tarixdən başlayaraq **cari ilin hər rübünün 1 və 2-ci aylarında** elektron qaydada (https://my.culture.az) qəbul olunacaqdır.

İştirakçı hər bir film layihəsi üçün ayrıca **https://my.culture.az vahid elektron kabineti** vasitəsilə qeyd olunan elektron müraciət formasını doldurmaqla 1 nömrəli Əlavədə göstərilən sənədləri PDF formatında təqdim etməlidir.

Müsabiqənin 2-ci mərhələsində Agentlik tərəfindən yaradılan və öz Əsasnaməsi əsasında fəaliyyət göstərən Katiblik Bədii Keyfiyyətə Nəzarət Komissiyasının iştirakı ilə təqdim olunmuş sənədlərin təhlilini və yoxlanılmasını **cari ilin hər rübünün 3-cü ayının 1-ci yarısında** həyata keçirir.

Təqdim edilən məlumatların tamlığına və düzgünlüyünə görə hər bir İştirakçı şəxsən məsuliyyət daşıyır. Tam və ya düzgün olmayan məlumatlar təqdim edən İştirakçı müsabiqədən kənarlaşdırılır. Sənədlərin tamlığının, qanunvericiliyə və bu Reqlamentin tələblərinə uyğunluğunun yoxlanılması zamanı nöqsan və ya çatışmazlıq aşkar olunarsa bu barədə İştirakçının elektron poçt ünvanına bildiriş göndərilir. İştirakçı 3 (üç) iş günü müddətində tələb olunan sənədləri və ya məlumatları təqdim etmədikdə, Agentlik İştirakçının kənarlaşdırılması haqqında qərar qəbul edir.

Bu Reqlamentin tələblərinə uyğun olaraq sənədləri tam və düzgün formada təqdim etmiş

layihələr növbəti mərhələyə keçir.

Müsabiqənin 3-cü mərhələsində **cari ilin hər rübünün 3-cü ayının 2-ci yarısında** Bədii Keyfiyyətə Nəzarət Komissiyasının üzvləri tərəfindən 2 nömrəli əlavədəki meyarlara əsasən layihələrin bədii və iqtisadi dəyərləndirilməsi aparılır. Qiymətləndirmə zamanı göstərilən Komissiya tərəfindən müəyyən edilmiş keçid balından yüksək nəticə almış layihələr qalib hesab edilir.

Film üçün Agentlik tərəfindən ayrılması tələb olunan məbləğ bu Reqlamentlə müəyyən edilmiş yuxarı hədlərdən çox olarsa, Bədii Keyfiyyətə Nəzarət Komissiyasının müsbət rəyi ilə layihə qiymətləndirilmə üçün Ekspert Şurasına təqdim edilir. Ekspert Şurası tərəfindən layihənin sadə səs çoxluğu ilə qiymətləndirilməsi həyata keçirilir, protokol tərtib olunur.

İştirakçılar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsabiqənin nəticələrindən müvafiq qaydada şikayət verə bilər.

Qalib layihələrə dair məlumat Agentliyin rəsmi internet səhifəsində dərc edilir.

## MÜSABİQƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİ

Qalib İştirakçı ilə Dövlət satınalmaları haqqında qanunun tələblərinə uyğun olaraq “Xidmətlər üzrə satınalma müqaviləsi” bağlanılır və müqavilədə müəyyən edilən şərtlərə uyğun olaraq maliyyələşmə həyata keçirilir. İştirakçı göstərilən müqaviləyə əlavə edilmiş filmin istehsal planının (iş qrafiki) və təxmini smeta dəyərinin (təklifin açıqlaması) tələblərini birtərəfli qaydada pozarsa, Agentliyin bağlanmış müqaviləyə birtərəfli qaydada xitam vermək, cərimə və zərərin ödənilməsinin tələb etmək hüququ var.

Filmin yayım və ya hər hansı digər satışından, həmçinin tərəflər arasında müqavilə imzalandıqdan sonra layihənin təxmini smeta dəyəri (təklifin açıqlaması) üzrə İştirakçının ayıracağı məbləğdən artıq olan əlavə digər gəlirlər (sponsor və s.) üzrə mənfəətin bölgüsü aşağıdakı kimi aparılır:

- Filmin istehsalı tam yekunlaşdıqdan sonra təsdiqlənmiş rəsmi sənədlərə əsasən filmə faktiki xərclənmiş maliyyə vəsaiti müyyən edilir və İştirakçı mənfəəti tam olaraq əldə etdikdən sonra təsdiqedici sənədlərə əsasən faktiki xərc nisbətinə uyğun olaraq vəsaiti Agentliyə ödəyir. Bu bölgü Agentlik tərəfindən filmin istehsalına ayrılmış vəsait tam qaytarılana kimi qüvvədə qalır.
- Agentlik tərəfindən filmin istehsalı üçün ayrılmış vəsait tam olaraq geri qaytarılarsa, bundan sonra mənfəətdən Agentliyə ödəniləcək faizin həcmi 7 faizə qədər azaldıla bilər. Azaldılma nəticəsində İştirakçının hesabında qalan vəsait Agentliklə razılaşdırmaq şərti ilə növbəti film layihələrinin istehsalına yönəldilir. Bu vəsaitdən başqa formada istifadə qadağandır.

***Əlavə məlumat üçün:***

*Tel.: (+99412) 525 11 28*
*E-poçt: arka@culture.gov.az*
*Ünvan: Bakı şəhəri, Mehdi Mehdizadə 31, Simur plaza, 8-ci mərtəbə*

**2025-ci il üzrə "Birgə film istehsalına dəstək müsabiqəsi"nin keçirilməsinə dair Reqlamentə Əlavə № 1**

## İştirakçı tərəfindən təqdim edilən sənədləri adlı siyahısı

| № | Sənədin izahlı adı | Sistemdəki adı |
|---|---|---|
| **1. Ümumi sənədlər** | | |
| 1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən arayış (Dövlət satınalmaları haqqında" AR Qanununun 23.3.5.1-ci, 23.3.5.2-ci və 23.3.5.3.-cü maddələri üzrə) | Arayış (vergi) |
| 2 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətindən arayış | Arayış (müfəttişlik) |
| 3 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Yerli İcra İdarəsindən arayış | Arayış (icra) |
| 4 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Probasiya Xİdmətindən arayış | Arayış (probasiya) |
| 5 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyindən arayış (direktorun məhkumluğun olub olmaması barədə) | Arayış (məhkumluq) |
| 6 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən arayış (əmlak olmadıqda daxili arayış əlavə olunur) | Arayış (əmlak) |
| 7 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polis İdarəsindən arayış (nəqliyyat vasitəsi olmadıqda daxili arayış əlavə olunur) | Arayış (nəqliyyat) |
| 8 | 12 aylıq dövrü əhatə edən bank dövriyyəsi barədə arayış | Arayış (dövriyyə) |
| 9 | Texniki baza barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (baza) |
| 10 | Texniki baza icarə əsasında cəlb edilibsə təsdiqedici sənəd (müqavilə və s.) | Müqavilə (baza) |
| 11 | Oxşar işlər barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (oxşar iş) |
| 12 | Oxşar işlər barədə arayışdakı işlər üzrə təsdiqedici sənədlər (müqavilə, akt və elektron qaimə) | Müqavilə (oxşar iş) |
| 13 | 2025-ci il üzrə təchizatçı (iştirakçı) tərəfindən hazırlanmış maliyyə hesabatları (maliyyə vəziyyəti haqqında, mənfəət və ya zərər haqqında, pul vəsaitlərinin hərəkəti haqqında, kapitalda dəyişikliklər haqqında) və ya 2025-ci il üzrə mənfəət bəyannaməsi | Maliyyə hesabatı |
| 14 | Təchizatçı (İştirakçı) haqqında arayış | Arayış (Şirkət) |
| 15 | Şirkətin VÖEN-i (əsli və ya notarial təsdiqlənmiş) | VÖEN |
| 16 | Şikətin reystrdən çıxarışı (əsli və ya notarial təsdiqlənmiş) | Reyestr |
| 17 | Şirkətin nizamnaməsi (əsli və ya notarial təsdiqlənmiş) | Nizamnamə |
| 18 | Şirkətin bankdakı hesabının rekvizitləri | Bank rekviziti |
| **2. Layihəyə aid sənədlər** | | |
| 1 | İşçi qüvvəsi barədə şirkət tərəfindən hazırlanmış arayış | Arayış (işçi qüvvəsi) |
| 2 | İşçi qüvvəsi üzrə təsdiqedici və məlumat xarakterli sənədlər (müqavilələr, filmoqrafiyalar və şəxsiyyət vəsiqələri). Filmlər üzrə ssenari müəllifi, quruluşçu rejissor, prodüser, icraçı prodüser, quruluşçu operator, quruluşçu rəssam, redaktor. Animasiya filmlərində quruluşçu operator tələb olunmursa onun sənədləri təqdim edilmir. | İşçi qüvvəsi məlumatları |

| | | |
|---|---|---|
| 3 | Layihənin ssenarisinin müəllifliyini təsdiq edən, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyindən alınmış müvafiq şəhadətnamə | Şəhadətnamə |
| 4 | İştirakçıya ssenari üzrə hüquqların verilməsi barədə sənəd (müqavilə, razılaşma və s.) | Müqavilə (ssenari) |
| 5 | Şirkət tərəfindən layihə üzrə təklif məktubu | Təklif məktubu |
| 6 | Layihənin təxmini smeta dəyəri (təklifin açıqlaması, pdf və excel versiyada təqdim edilir) | Smeta (pdf) |
| | | Smeta (excel) |
| 7 | Filmin istehsal planı (iş qrafiki) | İş planı (qrafiki) |
| 8 | Xarici prodüserlə olan birgə istehsal müqaviləsi və maliyyəni təsdiq edən sənəd (əlavə yerli maliyyələşmə olarsa, layihənin maliyyələşdirilməsi barədə arayış və arayışda qeyd edilən maliyyə mənbələrini təsdiq edən sənədlər (sponsurluq və birgə istehsal müqavilələri, maliyyə məktubu, digər müqavilə və ya memorandumlar) | Maliyyələşmə sənədi |
| 9 | Xarici prodüserin qeydiyyat sənədləri (VÖEN, reyestr, nizamnamə və ya Xarici prodüserin qeydiyyatda olduğu ölkədə bu sənədləri əvəz edən rəsmi qeydiyyat sənədləri) | Xarici prodüser |
| 10 | Filmin beynəlxalq yazılış formatına uyğun ssenarisi (şrift: “Courier” (“Courier new”), şriftin ölçüsü:12) (Dövlət Film Fonduna təhvil verilməsi məqsədilə) | Ssenari |
| 11 | Filmin sinopsisi | Sinopsis |
| 12 | Filmin (tammetrajlı bədii filmlər üçün) məzmunu (“tritment”) | Tritment |
| 13 | Filmin rejissor şərhi | Rejissor şərhi |
| 14 | Filmin prodüser şərhi | Prodüser şərhi |
| 15 | Layihənin təqdimatı (aktyorlar, məkanlar və s.) | Təqdimat |
| 16 | Könüllü təqdim edilən digər sənədlər (siyahıda nəzərdə tutulmayan layihə sənədləri) | Digər sənədlər |

Qeyd: Göstərilən hər bir maddə üzrə pdflər ayrı-ayrılıqda hazırlanmalı və müvafiq xanalara əlavə edilməldir.

**2025-ci il üzrə "Birgə film istehsalına dəstək müsabiqəsi"nin keçirilməsinə dair Reqlamentə Əlavə № 2**

**Bədii və iqtisadi dəyərləndirmə üzrə**

**MEYARLAR**

| № | Meyar | Bal |
|---|---|---|
| 1 | Ssenarinin bədii keyfiyyəti | |
| 2 | Prioritet mövzulara uyğunluğu | |
| 3 | Prioritet ölkələrə uyğunluğu | |
| 4 | Yayım potensialı (kinoteatr) | |
| 5 | Yayım potensialı (festival) | |
| 6 | Azərbaycandakı çəkilişlərin həcmi | |
| 7 | Təqdimat səviyyəsi | |
| 8 | Maliyyə vəsaitlərinin mövcudluğu | |
| 9 | Birdən çox xarici prodüserin iştirakı | |
| 10 | Müəlliflərin rezidentlik səviyyəsi | |

1. *Komissiyanın təcrübəsinə uyğun olaraq 1 və ya 0-la qiymətləndirilir.*
2. *Prioritet mövzulara uyğun olarsa 1, uyğun olmazsa 0 olaraq qiymətləndirilir.*
3. *Prioritet ölkələrə uyğun olarsa 1, uyğun olmazsa 0 olaraq qiymətləndirilir.*
4. *Yerli kinoteatr şəbəkəsindən tövsiyə məktubu təqdim edilərsə 1, digər hallarda Komissiyanın təcrübəsinə uyğun olaraq 1 və ya 0-la qiymətləndirilir.*
5. *3 nömrəli əlavədəki festivallardan birindən tövsiyə məktubu təqdim edilərsə 1, digər hallarda Komissiyanın təcrübəsinə uyğun olaraq 1 və ya 0-la qiymətləndirilir.*
6. *Çəkiliş məkanlarında Azərbaycan nəzərdə tutularsa 1, digər hallarda 0 olaraq qiymətləndirilir.*
7. *Təqdim edilmiş layihə sənədləri tam və düzgün təqdim edilərsə 1, digər hallarda 0 olaraq qiymətləndirilir.*
8. *İştirakçı tərəfindən ayrılması nəzərdə tutulan vəsaitlərin 50 faizindən çoxunun movcudluğu barədə sənəd təqdim edilərsə 1, digər hallarda 0 olaraq qiymətləndirilir.*
9. *Xarici prodüserlərin aid olduğu ölkə sayı 2 və ya daha çox olarsa 1, digər hallarda 0 olaraq qiymətləndirilir.*
10. *Müəlliflərin 2 və ya daha çoxu Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər olarsa 1, digər hallarda 0 olaraq qiymətləndirilir.*

*Qeyd: Komissiya tərəfindən "Ssenarinin bədii keyfiyyəti" və "10 meyarın orta qiyməti" üzrə orta keçid balı müəyyən edilir.*

**2025-ci il üzrə "Birgə film istehsalına dəstək müsabiqəsi"nin keçirilməsinə dair Reqlamentə Əlavə № 3**

***Qiymətləndirmə meyarına təsir edəcək beynəlxalq kino festivallarının SİYAHISI***

| **1. Festivalın müsabiqə proqramına daxil edilməklə filmə Britaniya Kino və Televiziya Sənətləri Akademiyasının ("BAFTA") mükafatına namizəd olmaq hüququ verən beynəlxalq festivalların siyahısı** | | |
|---|---|---|
| **№** | **Festivalın beynəlxalq təcrübədə qəbul edilmiş rəsmi adı** | **Festivalın Azərbaycan dilində adı** |
| 1 | AFI Fest | Amerika Film İnstitutu Festivalı |
| 2 | Animafilm İnternational Animation Film Festival | Animafilm Beynəlxalq Animasiya Filmləri Festivalı |
| 3 | Antalya Golden Orange Film Festival | Antalya "Kızıl Portakal" Film Festivalı |
| 4 | BAFTA Cymru | BAFTA Uels |
| 5 | BAFTA Scotland | BAFTA Şotlandiya |
| 6 | Bengaluru Iternational Film Festival | Benqaluru Beynəlxalq Film Festivalı |
| 7 | Berlin International Film Festival | Berlin Beynəlxalq Film Festivalı |
| 8 | BFI London Film Festival | Britaniya Film İnstitutu London Film Festivalı |
| 9 | BlackStar Film Festival | "BlackStar" Film Festivalı |
| 10 | British Independent Film Awards | Britaniya Müstəqil Film Mükafatları |
| 11 | Busan International Film Festival | Busan Beynəlxalq Film Festivalı |
| 12 | Busan International Short Film Festival | Busan Beynəlxalq Qısa Film Festivalı |
| 13 | Camden International Film Festival | Kamden Beynəlxalq Film Festivalı |
| 14 | Chicago International Film Festival | Çikaqo Beynəlxalq Film Festivalı |
| 15 | Cinedays | "Cinedays" Avropa Film Festivalı |
| 16 | Cinema Jove | "Cinema Jove" Valensiya Beynəlxalq Film Festivalı |
| 17 | Clermont-Ferrand International Short Film Festival | Klermont-Ferrand Beynəlxalq Qısa Film Festivalı |
| 18 | Cork International Film Festival | Kork Beynəlxalq Film Festivalı |
| 19 | CPH: DOX | Kopenhagen Beynəlxalq Sənədli Film Festivalı |
| 20 | DOK Leipzig | Leypsiq Beynəlxalq Sənədli və Animasiya Film Festivalı |
| 21 | Edinburgh International Film Festival | Edinburq Beynəlxalq Film Festivalı |
| 22 | Eurasia International Film Festival | Avrasiya Beynəlxalq Film Festivalı |
| 23 | Foyle Film Festival | Foyl Film Festivalı |
| 24 | Frameline San Francisco International Film Festival | "Frameline" San-Fransisko Beynəlxalq Film Festivalı |
| 25 | Gijon International Film Festival | Gijon Beynəlxalq Film Festivalı |
| 26 | Hot Docs Festival (Canadian International Documentary) | "Hot Docs" Kanada Beynəlxalq Sənədli Film Festivalı |
| 27 | International Documentary Film Festival Amsterdam | Amsterdam Beynəlxalq Sənədli Film Festivalı |
| 28 | International Film Festival of Kerala | Kerala Beynəlxalq Film Festivalı |
| 29 | International Film Festival Rotterdam | Rotterdam Beynəlxalq Film Festivalı |
| 30 | International Short Film Festival Oberhausen | Oberhauzen Beynəlxalq Qısa Film Festivalı |
| 31 | Jio MAMI Mumbai Film Festival | "Jio MAMI" Mumbay Film Festivalı |
| 32 | Kitzbühel Film Festival | Kitsbühel Film Festivalı |
| 33 | Kolkata International Film Festival | Kəlküttə Beynəlxalq Film Festivalı |

| | | |
|---|---|---|
| *34* | *Krakow International Film Festival* | *Krakov Beynəlxalq Film Festivalı* |
| *35* | *Kyiv International Film Festival Molodist* | *“Molodist” Kiyev Beynəlxalq Film Festivalı* |
| *36* | *La Semaine de la Critique - Cannes* | *“La Semaine de la Critique” Kann Festivalı* |
| *37* | *Leeds International Film Festival* | *Lids Beynəlxalq Film Festivalı* |
| *38* | *Locarno Film Festival* | *Lokarno Film Festivalı* |
| *39* | *Melbourne International Film Festival* | *Melburn Beynəlxalq Film Festivalı* |
| *40* | *Mostra de Valencia – Cinema del Mediterrani* | *“Mostra de Valencia – Cinema del Mediterrani” Valensiya Film Fetsivalı* |
| *41* | *Mostra Internazionale d'Arte Cinematografica - Venice* | *Venesiya Film Festivalı* |
| *42* | *New York Film Festival* | *Nyu-York Film Festivalı* |
| *43* | *Noir In Film Festival* | *“Noir In” (Kurmayer) Nuar Filmləri Festivalı* |
| *44* | *Open City Documentary Festival* | *“Open City” Sənədli Film Festivalı* |
| *45* | *ReelAbilities Film Festival* | *“ReelAbilities” Film Festivalı* |
| *46* | *Rome Film Fest* | *t Beynəlxalq Film Festivalı* |
| *47* | *Sheffield DocFest* | *Şeffild Sənədli Film Festivalı* |
| *48* | *Sitges International Fantastic Film Festival Of Catalonia* | *“Sitges” Kataloniya Beynəlxalq Fantastika Filmləri Festivalı* |
| *49* | *Slamdance Film Festival* | *“Slamdance” Film Festivalı* |
| *50* | *Sofia International Film Festival* | *Sofiya Beynəlxalq Film Festivalı* |
| *51* | *Sundance Film Festival* | *“Sundance” Film Festivalı* |
| *52* | *SuperFest Disability Film Festival* | *“SuperFest” Fiziki Məhdudiyyətlər Mövzularına Həsr Olunmuş Film Festivalı* |
| *53* | *SXSW Film & TV Festival* | *“SXSW” Film və Televiziya Festivalı* |
| *54* | *Sydney Film Festival* | *Sidney Film Festivalı* |
| *55* | *Tampere Film Festival* | *Tampere Film Festivalı* |
| *56* | *Telluride Film Festival* | *Tellurid Film Festivalı* |
| *57* | *Toronto International Film Festival* | *Toronto Beynəlxalq Film Festivalı* |
| *58* | *Transilvania International Film Festival* | *Transilvaniya Beynəlxalq Film Festivalı* |
| *59* | *Tribeca Film Festival* | *“Tribeca” Film Festivalı* |
| *60* | *True/False Film Fest* | *“True/False” Film Festivalı* |
| *61* | *Viennale International Film Festival* | *Vyana Beynəlxalq Film Festivalı* |
| *62* | *Visions Du Réel* | *“Visions Du Réel” Nyon Beynəlxalq Sənədli Film Festivalı* |
| *63* | *Yugo BAFTA Student Awards* | *“Yugo” BAFTA Tələbə Mükafatları* |
| *64* | *ZINEBI - International Festival of Documentary and Short Film of Bilbao* | *“Zinebi” Bilbao Beynəlxalq Sənədli və Qısa Filmlər Festivalı* |

| 2. Festivalın müsabiqə proqramına daxil edilməklə filmə “OSCAR” mükafatına namizəd olmaq hüququ verən beynəlxalq festivalların siyahısı | | |
|---|---|---|
| **№** | **Festivalın beynəlxalq təcrübədə qəbul edilmiş rəsmi adı** | **Festivalın Azərbaycan dilində adı** |
| 1 | *Academia De Las Artes Y Las Ciencias Cinematograficas De España* | *İspaniya Kinematoqrafiya Sənəti və Elmləri Akademiyası (QOYA Mükafatı)* |
| 2 | *Académie Des Arts Et Techniques Du Cinéma (César)* | *Kino Sənəti və Texnikaları Akademiyası (Sezar Mükafatı)* |
| 3 | *Academy Of Canadian Cinema & Television (Canadian Screen Awards)* | *Kanada Kino və Televiziya Akademiyası (Kanada Ekran Mükafatları)* |
| 4 | *AFI Fest* | *Amerika Film İnstitutu Festivalı* |
| 5 | *Alcine – Festival De Cine De Alcalá De Henares* | *“Alcine” Alkala de Enares Film Festivalı* |
| 6 | *Anim’est – International Animation Film Festival* | *“Animest” Beynəlxalq Animasiya Filmləri Festivalı* |
| 7 | *Anima Mundi* | *“Anima Mundi” Festivalı* |
| 8 | *Anima, The Brussels Animation Film Festival* | *“Anima” Brüssel Animasiya Filmləri Festivalı* |
| 9 | *Animafest Zagreb – World Festival Of Animated Film* | *“Animafest Zaqreb” Dünya Animasiya Filmləri Festivalı* |
| 10 | *Animator International Animated Film Festival* | *“Animator” Beynəlxalq Animasiya Filmləri Festivalı* |
| 11 | *Animayo* | *“Animayo” Festivalı* |
| 12 | *Ann Arbor Film Festival* | *Ann-Arbor Film Festivalı* |
| 13 | *Annecy International Animation Film Festival* | *Ansi Beynəlxalq Animasiya Filmləri Festivalı* |
| 14 | *Aspen Shortsfest* | *“Shortsfest” Aspen Film Festivalı* |
| 15 | *Athens International Film And Video Festival* | *Afina Beynəlxalq Film və Video Festivalı* |
| 16 | *Atlanta Film Festival* | *Atlanta Film Festivalı* |
| 17 | *Austin Film Festival* | *Ostin Film Festivalı* |
| 18 | *Berlin International Film Festival* | *Berlin Beynəlxalq Film Festivalı* |
| 19 | *Bermuda International Film Festival* | *Bermud Beynəlxalq Film Festivalı* |
| 20 | *Bilbao International Festival Of Documentary And Short Film* | *Bilbao Beynəlxalq Sənədli və Animasiya Filmləri Festivalı* |
| 21 | *Bogotá Short Film Festival – Bogoshorts* | *“Bogoshorts” Boqota Qısa Film Festivalı* |
| 22 | *British Academy Of Film And Television Arts (BAFTA) Awards* | *Britaniya Film və Televiziya Sənətləri Akademiyasının Mükafatları* |
| 23 | *Bronzelens Film Festival* | *“Bronzelens” Film Festivalı* |
| 24 | *Brussels Short Film Festival* | *Brüssel Qısa Film Festivalı* |
| 25 | *Bucheon International Animation Festival* | *Buçxon Beynəlxalq Animasiya Festivalı* |
| 26 | *Busan International Short Film Festival* | *Busan Beynəlxalq Qısa Film Festivalı* |
| 27 | *Calgary International Film Festival* | *Kalqari Beynəlxalq Film Festivalı* |
| 28 | *Cannes International Film Festival* | *Kann Beynəlxalq Film Festivalı* |
| 29 | *Cartagena International Film Festival* | *Kartaxena Beynəlxalq Film Festivalı* |
| 30 | *Chicago International Children’s Film Festival* | *Çikaqo Beynəlxalq Uşaq Filmləri Festivalı* |
| 31 | *Chicago International Film Festival* | *Çikaqo Beynəlxalq Film Festivalı* |
| 32 | *Chilemonos International Animation Festival* | *“Chilemonos” Beynəlxalq Animasiya Festivalı* |
| 33 | *Cinanima International Animated Film Festival* | *“Cinanima” Beynəlxalq Animasiya Film Festivalı* |
| 34 | *Cinequest Film Festival* | *“Cinequest” Film Festivalı* |
| 35 | *Clermont-Ferrand International Short Film Festival* | *Klermont-Ferrand Beynəlxalq Qısa Film Festivalı* |
| 36 | *Cleveland International Film Festival* | *Klivlend Beynəlxalq Film Festivalı* |

| | | |
|---|---|---|
| *37* | *Cork Film Festival* | *Kork Beynəlxalq Film Festivalı* |
| *38* | *David Di Donatello Award (Accademia Del Cinema Italiano)* | *İtaliya Kino Akademiyası (David Di Donatello) Mükafatı* |
| *39* | *Dubai International Film Festival* | *Dubay Beynəlxalq Film Festivalı* |
| *40* | *Edmonton International Film Festival* | *Edmonton Beynəlxalq Film Festivalı* |
| *41* | *Encounters Short Film And Animation Festival* | *“Enkaunters” Qısa və Animasiya Film Festivalı* |
| *42* | *Flickerfest International Short Film Festival* | *“Flickerfest” Beynəlxalq Qısa Film Festivalı* |
| *43* | *Florida Film Festival* | *Florida Film Festivalı* |
| *44* | *Foyle Film Festival* | *Foyl Film Festivalı* |
| *45* | *Galway Film Fleadh* | *Qalvey Film Festivalı* |
| *46* | *German Short Film Award* | *Alman Qısa Film Mükafatı* |
| *47* | *Gijon International Film Festival* | *Gijon Beynəlxalq Film Festivalı* |
| *48* | *Go Short International Short Film Festival Nijmegen* | *“Go short” Neymeqen Beynəlxalq Qısa Film Festivalı* |
| *49* | *Guadalajara International Film Festival* | *Qvadalaxara Beynəlxalq Film Festivalı* |
| *50* | *Guanajuato International Film Festival* | *Quanaxuato Beynəlxalq Film Festivalı* |
| *51* | *Hamptons International Film Festival* | *Hamptons Beynəlxalq Film Festivalı* |
| *52* | *Heartland Film Festival* | *“Heartland” Film Festivalı* |
| *53* | *Hiroshima International Animation Festival* | *Hiroşima Beynəlxalq Animasiya Festivalı* |
| *54* | *Hollyshorts Film Festival* | *“Hollyshorts” Film Festivalı* |
| *55* | *Honk Kong Film Festival* | *Honk Kong Film Festivalı* |
| *56* | *Huesca International Film Festival* | *Hueska Beynəlxalq Film Festivalı* |
| *57* | *In The Palace International Short Film Festival* | *“In The Palace” Beynəlxalq Qısa Film Festivalı* |
| *58* | *Interfilm International Short Film Festival Berlin* | *“Interfilm” Berlin Beynəlxalq Qısa Film Festivalı* |
| *59* | *İzmir İnternational Short Film Festival* | *İzmir Beynəlxalq Qısa Filmlər Festivalı* |
| *60* | *Jerusalem Film Festival* | *Qüds Film Festivalı* |
| *61* | *Karlovy Vary International Film Festival* | *Karlovı Vari Beynəlxalq Film Festivalı* |
| *62* | *Krakow Film Festival* | *Krakov Film Festivalı* |
| *63* | *LA Shorts Fest* | *“LA Shorts” Los-Anceles Beynəlxalq Qısa Film Festivalı* |
| *64* | *Lebu International Film Festival* | *Lebu Beynəlxalq Film Festivalı* |
| *65* | *Leeds International Film Festival* | *Lids Beynəlxalq Film Festivalı* |
| *66* | *Leipzig International Festival For Documentary And Animated Film* | *Leypsiq Beynəlxalq Sənədli və Animasiya Filmləri Festivalı* |
| *67* | *Leuven International Short Film Festival* | *Löven Beynəlxalq Qısa Film Festivalı* |
| *68* | *Locarno International Film Festival* | *Lokarno Beynəlxalq Film Festivalı* |
| *69* | *Los Angeles Asian Pacific Film Festival* | *Los-Anceles Asiya-Sakit Okean Film Festivalı* |
| *70* | *Melbourne International Film Festival* | *Melburn Beynəlxalq Film Festivalı* |
| *71* | *Montreal Festival Du Nouveau Cinema* | *“Du nouveau” Monreal Film Festivalı* |
| *72* | *Morelia International Film Festival* | *Morelia Beynəlxalq Film Festivalı* |
| *73* | *Nashville Film Festival* | *Nəşvil Film Festivalı* |
| *74* | *New Orleans Film Festival* | *Nyu-Orlean Film Festivalı* |
| *75* | *New York International Children’s Film Festival* | *Nyu-York Beynəlxalq Uşaq Filmləri Festivalı* |
| *76* | *Nordisk Panorama Film Festival* | *“Nordisk Panorama” Film Festivalı* |
| *77* | *Norwegian Short Film Festival* | *Norveç Qısa Film Festivalı* |
| *78* | *Oberhausen International Short Film Festival* | *Oberhauzen Beynəlxalq Qısa Film Festivalı* |
| *79* | *Odense International Film Festival* | *Odense Beynəlxalq Film Festivalı* |

| | | |
|---|---|---|
| *80* | *Ottawa International Animation Festival* | *Ottava Beynəlxalq Animasiya Festivalı* |
| *81* | *Palm Springs International Shortfest* | *“Palm Springs” Beynəlxalq Qısa Film Festivalı* |
| *82* | *Raindance Film Festival* | *“Raindance” Film Festivalı* |
| *83* | *Reel Sisters Of The Diaspora Film Festival* | *“Reel Sisters Of The Diaspora” Film Festivalı* |
| *84* | *Regard – Saguenay International Film Festival* | *Reqard-Saqvenay Beynəlxalq Film Festivalı* |
| *85* | *Rhode Island International Film Festival* | *Rod Aylənd Beynəlxalq Film Festivalı* |
| *86* | *Rio De Janeiro International Short Film Festival* | *Rio-de-Janeyro Beynəlxalq Qısa Film Festivalı* |
| *87* | *Riverrun International Film Festival* | *“Riverrun” Beynəlxalq Film Festivalı* |
| *88* | *Rsf Martha’s Vineyard African American Film Festival* | *Marta Vaynyard Afroamerikan Film Festivalı* |
| *89* | *San Francisco International Film Festival* | *San-Fransisko Beynəlxalq Film Festivalı* |
| *90* | *Santa Barbara International Film Festival* | *Santa-Barbara Beynəlxalq Film Festivalı* |
| *91* | *Sarajevo Film Festival* | *Sarayevo Film Festivalı* |
| *92* | *Seattle International Film Festival* | *Sietl Beynəlxalq Film Festivalı* |
| *93* | *Short Shorts Film Festival* | *“Short Shorts” Film festivalı* |
| *94* | *Show Me Shorts Film Festival* | *“Show Me Shorts” Qısa Film Festivalı* |
| *95* | *SIGGRAPH Computer Animation Fetsival’s Electronic Theater* | *“SIGGRAPH” Kompüter Animasiyası Festivalı Elektron Teatrı* |
| *96* | *Singapore International Film Festival* | *Sinqapur Beynəlxalq Film Festivalı* |
| *97* | *Sitges International Fantastic Film Festival Of Catalonia* | *“Sitges” Kataloniya Beynəlxalq Fantastika Filmləri Festivalı* |
| *98* | *South By Southwest* | *“South By Southwest” Televiziya və Film Festivalı* |
| *99* | *St. Kilda Film Festival* | *Sent-Kilda Film Festivalı* |
| *100* | *St. Louis International Film Festival* | *Sent-Luis Beynəlxalq Film Festivalı* |
| *101* | *Stuttgart Festival Of Animated Film* | *Ştutqart Beynəlxalq Animasiya Filmləri Festivalı* |
| *102* | *Sundance Film Festival* | *“Sundance” Film Festivalı* |
| *103* | *Sydney Film Festival* | *Sidney Film Festivalı* |
| *104* | *Tampere Film Festival* | *Tampere Film Festivalı* |
| *105* | *The Pan African Film & Arts Festival* | *Pan-Afrika Film və Sənət Festivalı* |
| *106* | *Tirana International Film Festival* | *Tirana Beynəlxalq Film Festivalı* |
| *107* | *Toronto International Film Festival* | *Toronto Beynəlxalq Film Festivalı* |
| *108* | *Tribeca Film Festival* | *“Tribeca” Film Festivalı* |
| *109* | *Uppsala International Short Film Festival* | *Upsala Beynəlxalq Film Festivalı* |
| *110* | *Venice International Film Festival* | *Venesiya Beynəlxalq Film Festivalı* |
| *111* | *Vis Vienna Shorts Festival* | *Vyana Müstəqil Qısa Filmlər Festivalı* |
| *112* | *Warsaw Film Festival* | *Varşava Film Festivalı* |
| *113* | *Winterthur International Short Film Festival* | *Vintertur Beynəlxalq Qısa Film Festivalı* |